# "Müəllim adını daşımaqdan qürur duyuram"



**Görkəmli maarifçi S.Qənizadə yazırdı: "Müəllimin evi kitabxana, dövləti şagird, sazı, nəğməsi şagirdlərinin sədası, qazancı isə millətin məhəbbəti və ehtiramıdır". Bu məhəbbəti və ehtiramı qazanan müəllimlərdən biri də Bakının Binəqədi rayonunda 246 nömrəli məktəbin ingilis dili müəllimi Şükufə Hüseynovadır.**

O, 1951-ci ildə Qərbi Azərbaycanın Ararat rayonunun Şirazlı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1958-ci ildə Şirazlı kənd orta məktəbinin I sinfinə getmiş, 1968-ci ildə məktəbi müvəffəqiyyətlə bitirmişdir. Elə həmin ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutuna daxil olmuşdur. 1973-cü ildə ali təhsilini başa vurmuş və ilk pedaqoji fəaliyyətə doğulduğu rayonun Aralez kənd orta məktəbində başlamışdır. 1988-ci ilin fevral ayında respublikanın "Maarif əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

Məlum hadisələrlə əlaqədar 1988-ci ilin avqust ayında Bakı şəhərinə köçmüş və pedaqoji fəaliyyətini Binəqədi rayonundakı 246 nömrəli məktəbdə davam etdirmişdir. Məktəb üzrə fənn metodbirləşməsinin sədridir. İşlədiyi müddətdə bir çox fəxri fərmanlar və diplomlarla təltif olunmuşdur.

1999-cu ildə şagirdləri olimpiada qalibləri olduğuna görə Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı şəhər Binəqədi rayon Təhsil Şöbəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.

2002-ci ildə pedaqoji mühazirələr müsabiqəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı şəhəri Binəqədi Təhsil Şöbəsinin II dərəcəli diplomu ilə təltif olunmuşdur.

2002-2009-cu tədris ilində "İlin ən yaxşı müəllimi" və "İlin ən yaxşı tərbiyəçisi" müsabiqəsində I yer tutduğuna görə Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı şəhər Binəqədi rayon Təhsil Şöbəsinin diplomu ilə təltif olunmuşdur.

Şükufə Hüseynova 2004-2005-ci tədris ilində SOROS xətti ilə Kiley Lonsonun təşkil etdiyi Müasir Metodologiya üzrə Müəllimləri Təkmilləşdirmə kursunu bitirmişdir.

2002-ci ildə ingilis dili ixtisası fakültəsi üçün "Nitq praktikasından proqram" işləyib hazırlayan Şükufə xanım neçə-neçə dəyərli məqalənin müəllifidir.

2014-cü ildə Azərbaycan Respublikası "Təhsil Mərkəzinin XXI əsrin ziyalıları" MM Cəmiyyəti ilə birgə keçirdiyi sorğu və müsabiqənin nəticələrinə görə "Qabaqcıl müəllim" və "XXI əsrin ziyalısı" fəxri mükafatları ilə təltif olunmuşdur.

Şükufə Hüseynova peşəsinə çox ciddi məsuliyyətlə yanaşan müəllimlərdəndir. O, dərsin səmərəliliyini, şagirdlərin təlimə olan marağını artırmaq məqsədilə yeni metodlardan istifadə edir. Şagirdlərdə nitqin axıcılığının, fikri aydın və sərbəst şəkildə ifadə etmək bacarığının inkişafına xüsusi diqqət yetirir.

Şagirdlərlə fərdi işləmək Şükufə müəllimənin iş üslubunun ən xarakterik cəhətlərindəndir. Bu da onların müstəqil çalışmalarına, işgüzar və fəal olmalarına şərait yaradır.

Şükufə Hüseynova metodbirləşmə rəhbəri kimi dərslərdə iştirak edir. Daim axtarışda olan müəllimə həmkarları tez-tez müraciət edir, onun tədbir metodikasından bəhrələnirlər. O, fənn müəllimləri ilə fikir mübadiləsi aparır, onları yeniliklərlə tanış edir, öz iradlarını bildirir.

Təcrübəli müəllimənin təşəbbüsü və rəhbərliyi ilə məktəbdə keçirilən görüşlər, yubileylər, tədbirlər məktəblilərin dünyagörüşünü genişləndirir, mənəviyyatını saflaşdırır. O, şagirdlərə ingilis dilinin incəliklərini öyrətməklə bərabər, onların Vətənə, xalqa layiq övlad, əsl vətəndaş kimi yetişmələrinə xüsusi diqqət yetirir.

Şükufə müəllimənin söylədiklərindən:

–Həyatın inkişafından kənarda qalan, onun gələcəyinə biganə olan, mənsub olduğu xalqın ağrı-acıları ilə yaşamayan və xalqa məhəbbət hissini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan kəs insanlıqdan uzaqdır.

Ulu öndərimiz Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində milli ideyalar, milli vəzifələr müəyyənləşib, dilimizin, dinimizin, tarixi keçmişimizin təhrif olunması, saxtalaşdırılması milli adət-ənənələrimizə biganəliyin səbəblərindən törənən faciələrimizin kökləri və s. açılıb göstərilmişdir.

Ulu öndərin böyük əməyi, zəhməti nəticəsində milli mənəviyyatımız dirçəlib, milli özünüdərketmə formalaşıb, gənclərimizdə vətənpərvərlik hissi daha da yüksəlib.

Nəhayət, Heydər Əliyevin məqsədyönlü, uzaqgörən siyasəti nəticəsində xalq öz tarixi keçmişinin mənzərəsini yaratmaq imkanı əldə etmişdir. Bu, danılmaz bir həqiqətdir.

Azərbaycan müəlliminin müqəddəs vəzifəsi dərin biliyi, gözəl əxlaqı ilə seçilən, ürəyi vətənpərvərlik duyğuları ilə döyünən bir nəsil yetişdirməkdir.

Çünki vətənpərvər, savadlı və yüksək intellektə malik gənclər xoşbəxt gələcəyin rəhnidir.

**Tinatin ƏHMƏD QIZI.**